**Azərbaycan Respublikası Mərkəzi Bankının "Bank Sertifikat Xidmətləri Mərkəzi"nin**

**İstifadəçi sertifikatının yüklənməsi üzrə**

# İstifadəçi təlimatı

**Bakı – 2022**

## Mündəricat

1. Anlayışlar ........................................................ 3
2. İstifadəçi sertifikatının yüklənməsi ............................ 3
2.1.Sorğunun yoxlanılması ........................................... 3
2.2. Sorğunun yoxlanılmasının statusları ....................... 5
3. Sertifikatın ödənişi .................................................. 9

# 1. Anlayışlar

Bu təlimatda istifadə olunmuş qısaltmalar aşağıdakı mənaları ifadə edir:

- **BSXM** – Bank Sertifikat Xidmətləri Mərkəzi
- **SM** – Sertifikasiya Mərkəzi
- **QM** – Qeydiyyat Mərkəzi

# 2. İstifadəçi sertifikatının yüklənməsi

İstifadəçi sertifikat sorğusunu yaradaraq SM-nə göndərdikdən sonra sorğunun qeydiyyata alınması barədə istifadəçiyə xəbərdarlıq edilir. Təyin edilmiş müddət ərzində sorğuya baxılaraq sertifikatlaşdırılması haqqında qərar qəbul edilərsə sorğu sertifikatlaşdırılır. Sertifikat sahibi sorğunun qeydiyyat nömrəsi vasitəsilə sertifikat sorğusunun statusu haqqında məlumat öyrənə və sertifikatı yükləyə bilər.

## 2.1.Sorğunun yoxlanılması

Sorğunun yoxlanılması üçün sistemdə növbəti addımları yerinə yetirmək lazımdır.

- “BSXM”-nın veb səhifəsinə https://bsxm.e-cbar.az/ keçin.
- Sistemin əsas səhifəsində " **İSTİFADƏÇİ SERTİFİKATININ YÜKLƏNMƏSİ**”-ni seçin (şək. 2.1.1).




*Şəkil 2.1.1. Əsas səhifə vasitəsilə istifadəçi sertifikatının yüklənməsi*

- Və ya BSXM-nın əsas səhifəsində təşkilatı-hüquqi formasına görə seçim edin (Məs. **Fiziki şəxslər)**.

- Sonra isə "**İstifadəçi sertifikatının yüklənməsi**"-nı seçin (şək. 2.1.2).



*Şəkil 2.1.2. İstifadəçinin növü vasitəsilə istifadəçi sertifikatının yüklənməsi*

Açılmış yeni pəncərədə istifadəçi sertifikatın yüklənməsi üçün sertifikat sorğusunun yaradılması zamanı təqdim etdiyi məlumatlardan bəzilərini daxil etmək lazımdır (şək. 2.1.3):




*Şəkil 2.1.3. Sertifikatın yüklənməsi üçün məlumatların daxil edilməsi*

- ***Qeydiyyat nömrəsi*** - sorğunun qeydiyyatı zamanı sistem tərəfindən istifadəçiyə təqdim edilən sorğunun qeydiyyat nömrəsi qeyd olunmalıdır.
- ***Ş.V. FİN kodu*** - parolun analoqu olan istifadəçinin şəxsiyyət vəsiqəsinin fərdi eyniləşdirmə nömrəsi. Əgər kursoru sual nişanının üzərinə yönəltsəniz, FİN kodun necə yazılacağını izah edən şəkil çıxacaq.
- ***Doğum tarixi (gün,ay,il)*** - Sertifikat sorğusunun yaradılmasında göstərilmiş, istifadəçinin doğum tarixi.
- ***Şəkildəki kodu daxil edin*** - sizin "robot" olmadığınızı təsdiq etmək üçün şəkildəki göstərilmiş kodu daxil edin.

Bütün sahələri doldurulduqdan sonar **"Axtar"** düyməsini seçmək lazımdır. Sorğu nömrəsi yoxlanıldıqdan sonra sorğunun hazırki statusu barədə istifadəçiyə məlumat verilir.

## 2.2. Sorğunun yoxlanılmasının statusları

Sertifikat sorğusunun yaradılması və SM-ə göndərilməsindən sonra, sorğu yoxlama, emal və təsdiq proseslərində ola bilər. Bu proseslərdən hansı mərhələdə olmasından asılı olaraq sorğunun statusları aşağıdakı kimi olur:

1. Əgər sizin sorğunuz hələ SM-i tərəfindən emal edilməmişdirsə , növbəti status göstəriləcəkdir:
   Sizin sorğunuza hələ baxılmayıb.

2. Əgər QM-i sorğunu SM-inə göndəribsə və sorğu emal olunursa, onda növbəti status göstəriləcəkdir (şək. 2.2.1):
   Sizin sorğunuz qeydiyyata alınaraq sertifikatlaşdırılmaq üçün sertifikasiya mərkəzinə göndərilib.




*Şəkil 2.2.1. İstifadəçi sertifikatının statusunun yoxlanılması*

3. Əgər QM-i sorğunuzu müvəqqəti dayandırılmışdırsa, onda növbəti status göstəriləcəkdir:
   Sizin sorğunuzun qeydiyyatı müvəqqəti olaraq təxirə salınıb.

4. Əgər sorğunuz bəzi səbəblərə görə ləğv edilibsə, onda növbəti status göstəriləcəkdir:
   Sizin sorğunuz müəyyən səbəblər üzündən (sonradan qeyd olunacaq) ləğv olunub.

5. Əgər sertifikat SM-i tərəfindən sertifikatlaşdırılmışdırsa, onda növbəti status göstəriləcəkdir:
   Sizin sorğunuz üzrə sertifikat hazırlanıb.

Bu halda əgər sizin sertifikatınız ödənilibsə, onda hazırlanmış sertifikatı yükləmək üçün istifadəçi **“Sertifikatı quraşdır”** düyməsini seçməlidir (şək. 2.2.2). Sertifikatı əldə edib, öz kompüterinizin yaddaşına yükləyib, sonra isə quraşdıra bilərsiniz.




*Şəkil 2.2.2. İstifadəçi sertifikatının statusunun yoxlanılması*

6. Əgər sertifikat üçün ödəniş edilməmişdirsə, onda növbəti status göstəriləcəkdir:
Ödənişə göndərilmiş

Bu halda **“Ödəniş et”** düyməsini seçib (şək. 2.2.3) ödəniş prosesini həyata keçirmək lazımdır.




*Şəkil 2.2.3. İstifadəçi sertifikatının statusunun yoxlanılması*

7. Əgər sertifikatın məlumatları səhvlə daxil edilmişdirsə, növbəti status göstəriləcəkdir:
Axtarış məlumatları səhv daxil edilib. Zəhmət olmasa yenidən cəhd edin.

Əmin olun ki, daxil edilmiş məlumatlar düzgün yazılmışdır, daha sonra onları yenidən daxil edin.

## 3. Sertifikatın ödənişi

**"Ödəniş et"** düyməsini seçdikdə (şək. 2.2.3), açılan pəncərədə yoxlama üçün ödəmə kartının ilk 6 rəqəmini daxil edib (şək. 3.1), **"Ödəniş et"** düyməsini yenidən seçmək lazımdır.




*Şəkil 3.1. Kartın yoxlanılması*

Kartın nömrəsinin yoxlamasından, sonra növbəti pəncərədə (şək. 3.2) kartın məlumatlarını doldurduqdan sonra **"İrəli"** düyməsini seçmək lazımdır.




*Şəkil 3.2. Ödəmə kartın məlumatların daxil edilməsi*

Müvəffəqiyyətlə məlumatların daxil edilməsindən sonra, növbəti pəncərə göstəriləcək (şək. 3.3), burada sizin ödənişinizin emalı həyata keçirilir.




*Şəkil 3.3. Ödəmənin emalı*

Ödənişin müvəffəqiyyətli emalından sonra, siz **E-mail** sahəsinə öz elektron poçtunuzu daxil edib, **"Göndər"** düyməsini seçərək e-poçtla qəbzi ala bilərsiniz (şək. 3.4).




*Şəkil 3.4. Sertifikatın ödənişi*

Və ya **"Qəbz"** düyməsini seçərək (şək. 3.4), birbaşa qəbzi nəzərdən keçirə və çap edə bilərsiz (şək. 3.5).




*Şəkil 3.5. Sertifikatın ödənişi*

Ödəniş üzrə mərhələləri keçdikdən sonra Sertifikat sorğusunun Unikal nömrəsini daxil etməklə təlimatın 2 bəndində qeyd olunduğu kimi sertifikatı yükləyərək quraşdıra bilərsiniz.